**Sima SÜLEYMANLI**
Bakı Dövlət Universiteti
Hüquq fakültəsinin doktorantı,
hüquq üzrə fəlsəfə doktoru
e-mail: s.suleymanli@hotmail.com

# MƏDƏNİ İRS OBYEKTLƏRİNİN QANUNSUZ DÖVRİYYƏSİ İLƏ MÜBARİZƏDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIĞIN PRİNSİPLƏRİ

**Açar sözlər:** mədəni irs obyektləri, qanunsuz dövriyyə, beynəlxalq əməkdaşlıq, prinsiplər, beynəlxalq hüquq, milli qanunvericilik.

**Ключевые слова:** объекты культурного наследия, незаконный оборот, международное сотрудничество, принципы, международное право, национальное законодательство.

**Keywords:** cultural heritage objects, illegal circulation, international cooperation, principles, international law, national legislation.

Mədəni irs obyektlərinin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi göstərir ki, bu mübarizə beynəlxalq əməkdaşlıq olmadan mümkün deyildir. Əslində qanunsuz dövriyyə ilə mübarizə mədəni irs obyektlərinin qorunması sferasında beynəlxalq əməkdaşlığın bir istiqaməti və forması qismində çıxış edir [10, s.48-49]. Mədəni irs obyektlərinin qanunsuz dövriyyəsi ilə mübarizədə mühüm əhəmiyyət kəsb edən beynəlxalq əməkdaşlıq, onun məzmununu, üsul və vasitələrini müəyyən edən prinsiplərə riayət edilməsi şərti ilə həyata keçirilir. Bu prinsiplərlə bağlı aşağıdakı xüsusiyyətlərin nəzərə alınması vacibdir:

*Birincisi*, prinsiplər təbiəti baxımından ikili xüsiyyətə malikdir, yəni özündə rəhbər tutulmalı olan ideyanı və normativliyi birləşdirir [9, s.67-82]. Bu xüsusiyyət prinsiplərlə bağlı hüquq ədəbiyyatında fərqli yanaşmaların olmasını şərtləndirir. Əslində "prinsip” termini mənşəcə latın sözü (*prinsipum*) olub “ilkin”, “əsas”, “başlanğıc”, “əsas müddəa”, “rəhbər ideya”, “əsas davranış qaydası” kimi etimoloji mənanı verir [7, s.103]. Bu kotekstdə prinsiplərin məzmun baxımından rəhbər tutulmalı olan müddəa və ya başlanğıc (ideya) olması qəbul ediləndir. Lakin bunun əsas götürülməklə prinsiplərin “prinsip - ideya” adlandırılan xüsusi bir növünün ayrılması (yeri gəlmişkən, sülh və əməkdaşlıq bu qrupa aid edilir) [16, s.121] ilə razılaşmaq bir qədər çətindir. Belə bir yanaşma, “hər hansı hüquqi ideya qanunda təsbit olunmayana qədər onu prinsip qismində qəbul etmək olmaz” [1, s.85] və ya “onların köməyi ilə bu və ya digər ictimai münasibətləri hərtərəfli tənzimləmək olmaz” [7, s.107] və s. kimi fikirlərin yaranmasını şərtləndirir. Hesab edirik ki, prinsiplərin “ümumi norma” olması [18, s.94], onların tənzimləyici funksiyasının olmaması və ya az olması kimi dəyərləndirilə bilməz. Bunun düzgün olmamasının təsdiqlənməsi üzrə bir qədər dəqiqləşdirmə aparmaq lazımdır. Prinsipin ilkin istiqamət, başlanğıc olması, onun ideyaların hüdudlarından kənara çıxaraq normativ və hüquqtətbiq məzmunu kəsb etməsini inkar etmir [15, s.195]. Qeyd olunan ilkin müddəaların bu və ya digər normativ aktlarda, yaxud hüquqi mənbələrdə təsbit olunmaqla pozitivləşdirilməsi, əslində onların normativ məzmun kəsb etməsini təsdiq edən əlavə amil qismində çıxış edir. Başqa sözlə, prinsiplər hüquq normlarının bir növü olmaqla tənzimləyici funksiyaya malikdir. Bu baxımdan hüquq ədəbiyyatında hüquq normalarının “prinsip-norma” [3, s.39-42; 21, s.16] adlı xüsusi növünün mövcudluğu fikri

ilə razılaşmaq olar. AR-in milli qanunvericiliyində də (məsələn, Cinayət Məcəlləsi (CM), m. 5-9) belə normalar mövcuddur. AR Konstitusiyasının [25] "Beynəlxalq münasibətlərin prinsipləri" adlanan 10-cu maddəsindəki "hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər" ifadəsini də məhz bu fikrin təsdiqi kimi təfsir etmək lazımdır. Hesab edirik ki, bu yanaşma hüquq nəzəriyyəsində qəbul edilən mövqe ilə də uyğunluq təşkil edir. Həmin mövqeyə görə, yalnız ayrı-ayrı hüquq normaları, institutlar və ya hüquq sahələri deyil, bütün hüquq sistemi onun əsasında qurulur və həyata keçirilir [20, s. 249]. Göründüyü kimi, prinsiplər hüquq sisteminin bünövrəsini təşkil edən hüquq normaları olmaqla aşağıdakıları şərtləndirir: 1) Konstitusiyanın təsbit etdiyi hüquq normaları bir qayda olaraq prinsip – normalardır; 2) hüquq yaradıcılığının əsasını təşkil edir. Konstitusiyanın 149.I-ci maddəsindəki "normativ hüquqi aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalıdır" və CM-nin 1.2-ci maddəsindəki "Bu Məcəllə... beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarına və prinsiplərinə əsaslanır" müddəaları dediklərimizi təsdiq edir. Bu kontekstdə hüququn prinsipləri "hüquq normasının məzmununu yaradan (maddi) mənbə" [4, s.96] qismində çıxış edir. Göründüyü kimi, prinsiplər əsasında xüsusi və ya sahəvi prinsiplərin və beynəlxalq müqavilə normalarının yaranması istisna edilmir. Əslində hüququn prinsiplərinin konkret hüquq və qanunvericilik sahəsinin xüsusiyyətlərinə müvafiq olaraq xüsusi tətbiq etmə xarakteri əldə etməsi [13, s.42] onların malik olduğu xüsusiyyətlərdəndir. Bu prinsipin məzmununun konkretləşdirilməsi deyil, müvafiq prinsipin hüquqyaradıcılığı sferasında realizsədir [12, s.70-71]; 3) hüququn realizəsi prosesində iştirak edir. Bu müstəvidə "hüquqda boşluqların aradan qaldırılması zamanı və mürəkkəb hüquqi məsələlərin həlli zamanı prinsiplərə ehtiyac duyulur" [4, s.163-164]. Yəni prinsiplər birbaşa olaraq tənzimetmədə iştirak edir. Bunu AR qanunvericiliyi də təsdiq edir. Belə ki, "Normativ hüquqi aktlar haqqında" 2010-cu il tarixli Konstitusiya Qanununun (bundan sonra – Konstitusiya Qanunu) [28] 13.4-cü, Mülki Məcəllənin (MM) [30] 11.2-ci, Mülki Prosessual Məcəllənin (MPM) [31] 13.5-ci maddələrinə müvafiq olaraq, tətbiq orqanı konkret ictimai münasibətləri tənzimləyən və ya oxşar qanunvericilik normaları olmadığı zaman, Konstitusiyada və qanunlarda təsbit olunmuş hüququn konkret sahələrinə aid prinsiplərdən və hüququn ümumi prinsiplərindən istifadə edir. Göründüyü kimi, prinsiplər mədəni irs obyektlərinin qanunsuz dövriyyəsi ilə mübarizədə "hüquq yaradıcılığının və hüququn tətbiqi ilə bağlı fəaliyyətin əsas istiqamətlərini" [8, s.24] müəyyən edir. Qeyd olunanlardan belə bir ilkin nəticəyə gəlmək olar ki, prinsiplər mədəni irs obyektlərinin qanunsuz dövriyyəsi ilə mübarizədə əməkdaşlığın əsas xüsusiyyətlərini ehtiva etməklə bu mübarizədə rəhbər tutulmalı olan başlanğıc müddəaları və normativ göstərişləri özündə birləşdirir. Bu xüsusiyyət özünü xüsusi olaraq mədəni irs obyektlərinin qanunsuz dövriyyəsi ilə bağlı qəbul edilən və "yumşaq normaları" təsbit edən aktlarda da göstərir. Məsələn, BMT Baş Məclisinin 18 dekabr 2014-cü il tarixli 69-cu sessiyasında qəbul edilən "Cinayətkarlığın qarşısının alınması üzrə tədbirlər alınmasının və mədəni sərvətlərin qanunsuz dövriyyəsi və onunla bağlı digər cinayətlərə münasibətdə cinayət mühakiməsinin beynəlxalq rəhbər prinsipləri" [35] və Beynəlxalq Hüquq Assosiasiyasının (İLA) 2006-cı ildə qəbul etdiyi "Mədəni sərvətlərin qarşılıqlı qorunması və ötürülməsində əməkdaşlığın Prinsipləri"ni göstərmək olar. Sonuncu Prinsiplər mədəni irs obyektlərinin qaytarılması ilə bağlı yaranan mübahisələrin qarşısının alınması və həlli üçün mühüm olan əsasları (*əlbəttə ki, hüquqi əsasları*) təmin edir [23].

*İkincisi,* mədəni irs obyektlərinin qanunsuz dövriyyəsi ilə mübarizədə beynəlxalq əməkdaşlıq müxtəlif funksiyaları yerinə yetirir: a) BMT Nizamnaməsində təsbit olunan beynəlxalq hüququn əsas funksional prinsiplərindən olan beynəlxalq əməkdaşlıq mədəni irs obyektlərinin qanunsuz dövriyyəsinə qarşı mübarizənin hüquqi əsası qismində çıxış edir. Bu prinsipə görə, dövlətlər mədəni irs obyektlərinin qanunsuz dövriyyəsi ilə mübarizə məqsədilə əməkdaşlıq etməyə borcludurlar. BMT Nizamnaməsində (m. 1.3) "beynəlxalq əməkdaşlığın həyata keçirilməsinin" məqsəd olaraq müəyyən edilməsi faktı, beynəlxalq əməkdaşlıq prinsipində ideya və

normativliyin uzlaşmasını təsdiq edir; b) beynəlxalq hüququn əsas prinsiplərindən biri olsa da, beynəlxalq əməkdaşlıq mədəni irs obyektlərinin qanunsuz dövriyyəsinə qarşı mübarizədə "beynəlxalq hüququn digər əsas prinsiplərinin praktiki realizə forması qismində çıxış edir" [17, s.71]. Yəni beynəlxalq hüququn digər əsas prinsiplərinin realizəsi üçün dövlətlərin beynəlxalq əməkdaşlıq etməsi zəruridir. Başqa sözlə, digər prinsiplər nəzərə alınmadan beynəlxalq əməkdaşlığın həyata keçirilməsi, yaxud, beynəlxalq əməkdaşlıq olmadan digər prinsiplərin realizəsi mümkün görünmür. Beynəlxalq mədəni əməkdaşlığın prinsipləri haqqında 1966-cı il Bəyannaməsində [36] təsbit olunduğu (m.IV) kimi beynəlxalq mədəni əmədaşlıq beynəlxalq hüququn digər əsas prinsiplərinin tətbiqinə yardım edir; c) dövlətlərin beynəlxalq öhdəliklərinin və maraqlarının realizəsi aləti qismində çıxış edir. BMT Nizamnaməsində təsbit olunan (m. 1.3) "iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həllində beynəlxalq əməkdaşlıq həyata keçirilməlidir" müddəasına uyğun olaraq, Mədəni sərvətlərin qanunsuz olaraq gətirilməsinin, çıxarılmasının və onların üzərində mülkiyyət hüququnun başqasına verilməsinin qadağan edilməsinə və qarşısının alınmasına yönəlmiş tədbirlər haqqında 1970-ci il UNESKO Konvensiyası (bundan sonra – 1970-ci il UNESCO Konvensiyası) (AR 1997-ci ildən iştirak edir) [2, c.1, s.813-821], beynəlxalq əməkdaşlığı mədəni irs obyektlərinin qanunsuz dövriyyəsinə qarşı mübarizədə təsirli vasitə olaraq müəyyən edir (m.2).

*Üçüncüsü,* mədəni irs obyektlərinin qanunsuz dövriyyəsi ilə mübarizənin xüsusiyyətləri, bu sahədə beynəlxalq əməkdaşlıqda müxtəlif hüquqi prinsiplərdən istifadə olunmasını şərtləndirir. Qeyd olunan kompleksliliyi aşağıdakılarla izah etmək olar: 1) beynəlxalq əməkdaşlığın beynəlxalq hüququn əsas prinsipi olması, o cümlədən digər əsas prinsiplərin realizəsi vasitəsi qismində çıxış etməsi, məntiqi olaraq mübarizə fəaliyyətində beynəlxalq hüququn əsas prinsiplərindən istifadə olunmasını şərtləndirir; 2) mədəni irs obyektlərinin qanunsuz dövriyyəsi ilə mübarizədə beynəlxalq əməkdaşlığın beynəlxalq mədəni əməkdaşlığın tərkib hissəsi olması, sonuncu üçün xarakterik olan hüquqi prinsiplərdən istifadə edilməsini şərtləndirir; 3) mədəni irs obyektlərinin qanunsuz dövriyyəsi ilə mübarizə məntiqi olaraq cinayətkarlıqla beynəlxalq hüquqi mübarizədə tətbiq olunan maddi və prosessual xarakterli hüquqi prinsiplərdən istifadə olunmasını şərtləndirir; 4) mədəni irs obyektləri ilə mübarizənin özündə ümumi hüquqi və xüsusi hüquqi cəhətləri birləşdirməsi, ümumi hüquq sisteminə aid prinsiplərlə yanaşı, xüsusi hüquq sisteminə aid olan prinsiplərin də tətbiq edilməsini şərtləndirir.

Qeyd olunan kompleksliliyi, ümumi prinsiplər əsasında münasibət sferasının xüsusiyyətinə uyğun olaraq xüsusi prinsiplərin yarana bilməsini nəzərə alaraq, mədəni irs obyektlərinin qanunsuz dövriyyəsi ilə mübarizədə beynəlxalq əməkdaşlığın prinsiplərini şərti olaraq iki qrupa ayırmaq olar; 1) ümumi prinsiplər; xüsusi prinsiplər. Burada şərtiliyi daha çox birinci qrupa aid etmək olar. Çünki bu qrup hüquqi qüvvə baxımından fərqli olan müxtəlif prinsipləri özündə birləşdirir. Belə ki, bu qrupa hüququn ümumi prinsipləri, beynəlxalq hüququn əsas prinsipləri, beynəlxalq mədəni əməkdaşlığın prinsipləri, cinayətkarlıqla mübarizədə istifadə olunan maddi hüquqi və prosesual hüquqi prinsiplər daxil edilmişdir. Xüsusi prinsiplər qrupuna isə sırf mədəni irs obyeklərinin qanunsuz dövriyyəsi ilə mübarizə üçün xarakterik olan prinsiplər daxildir. Yeri gəlmişkən xüsusi prinsiplər də ümumi də olduğu kimi kompleksilik xarakterinə malikdir. Belə ki, xüsusi prinsiplər qrupu özündə xüsusi hüququn (məsələn, mədəni irs obyektinin qaytarılması halında vicdanlı sahibə kompensasiya ödənilməsi), cinayət və cinayət prosessual hüququn, gömrük hüququnun və s. xüsusiyyətlərini birləşdirə bilər. Bütövlükdə bu prinsiplər: 1) mədəni irs obyektlərinin qanunsuz dövriyyəsi ilə mübarizənin xüsusiyyətlərini müəyyən edir və daha dar tətbiq sferasına malikdir; 2) onların dairəsi qeyri-müfəssəldir. Hesab edirik ki, bu prinsiplərdən istifadə üzrə aşağıdakı tələblər də nəzərə alınmalıdır: 1) istər ümumi, istərsə də xüsusi prinsiplər qarşılıqlı əlaqəyə malikdir. Bu xüsusiyyət onların təcrid olunmuş formada tətbiq edilməsini istisna edir;

2) qarşılıqlı əlaqə onlar arasındakı tabeçilik münasibətlərini inkar etmir. Belə ki, xüsusi prinsiplər ümumi prinsiplərə zidd ola bilməz.

Bu xüsusiyyətlər və tələblər kontekstində mədəni irs obyektlərinin qanunsuz dövriyyəsi ilə mübarizədə beynəlxalq əməkdaşlıq üçün əhəmiyyətli ola biləcək aşağıdakı prinsipləri təhlil etməyə çalışacağıq.

İlk olaraq mədəni irs obyektlərinin qorunmasının hüquqi rejiminin bütövlüyü prinsipini qeyd etmək lazımdır. Bütövlükdə qoruma rejiminə aid olan bu prinsip "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" 1972-ci il UNESKO Konvensiyasında (bundan sonra – 1972-ci il UNESCO Konvensiyası) (AR 1993-cü ildən iştirak edir) [34] təsbit olunur. Bu prinsipə əsasən, mədəni irs obyektlərinin qorunması sisteminin əsasında milli hüquqla müəyyən edilən qoruma rejimi dayansa da, onun səmərəli realizəsi beynəlxalq qoruma sisteminin yaradılması lazımdır. Qanunsuz dövriyyə ilə mübarizəyə münasibətdə vahidlik prinsipinin mahiyyətini belə başa düşmək lazımdır ki, qanunsuz dövriyyənin qarşısının alınması üzrə tədbirlərin görülməsi bilavasitə dövlətin (ixrac və ya idxal) öhdəliyi olsa da, bu dövriyyənin qarşısının alınmasında beynəlxalq əməkdaşlıq (ən azından idxal və ixrac dövləti arasında əməkdaşlıq) ən təsirli vasitədir. Əslində qoruma rejiminin vahidliyi prinsipi milli və beynəlxalq qoruma rejiminin uzlaşdırılmasını şərtləndirir. Bu uzlaşma, istər hüquqyaratma, istərsə də hüquqtətbiq mərhələsi üçün xarakterik olmalıdır. Hesab edirik ki, qeyd olunan uzlaşma üçün, bir tərəfdən, beynəlxalq səviyyədə qoruma tədbirlərinin zəruriliyinin, digər tərəfdən, milli mədəni irsin qorunmasının mənşə dövləti üçün həyati əhəmiyyət kəsb etməsinin başa düşülməsi olduqca əhəmiyyətlidir. Yəni, milli özünəməxsusluğun daxil olduğu ümumi qaydanın qorunması, mədəni irsin beynəlmiləlləşməsinə mane olmamalı, mədəni inteqrasiya prinsipini pozmamalıdır. Qeyd olunanlar müstəvisində qoruma rejimin vahidliyi prinsipinin məzmununa aşağıdakılar daxildir: 1) mədəni irs obyektlərinin aşkar edilməsi, qorunması və gələcək nəsillərə çatdırılması öhdəliyi ilk olaraq mənşə dövlətinin öhdəliyidir (1972-ci il UNESCO Konvensiyası, m.4); 2) mədəni irs obyektinin mədəni irs üçün əhəmiyyətinin, o cümlədən həmin obyektlərlə bağlı hansı hərəkətlərin qanunsuz olmasının müəyyən edilməsi hüququ mənşə dövlətinə məxsusdur (1970-ci il UNESCO Konvensiyası, m. 1, 3); 3) digər dövlətlər mədəni irs obyektlərinin qanunsuz dövriyyəsinin qarşısının alınması və vurulmuş zərərin əvəzinin ödənilməsi istiqamətində mənşə dövlətinə kömək etmək öhdəliyinə malikdirlər (1970-ci il UNESCO Konvensiyası, m. 2).

Mədəni irs obyektlərinin qanunsuz dövriyyəsi ilə mübarizədə beynəlxalq əməkdaşlıq üşün əhəmiyyətli olan ikinci prinsip beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarının üstünlüyünün tanınmasıdır. Konstitusiya Qanunu bu prinsipi, AR-in normayaradıcılığı fəaliyyətinin əsas prinsiplərindən biri kimi müəyyən edir (m. 8.0.3). Bu prinsip, beynəlxalq hüququn əsas prinsipləri başda olmaqla hamılıqla qəbul edilmiş bütün prinsip və normaları ehtiva edir. Həmin normalar, "bütövlükdə beynəlxalq birlik, yaxud bu birliyin əksəriyyət üzvləri tərəfindən tanınan və qəbul edilən normalardır" [12, s.70]. Anlayışdan məlum olur ki, beynəlxalq hüququn heç də bütün prinsip və normaları hamılıqla qəbul edilən normalar deyildir. Sonuncular yalnız beynəlxalq hüquq normalarının bir növünü təşkil edir. Prinsiplər hamılıqla qəbul edilmiş əsas normalar olmaqla beynəlxalq hüququn "çərçivəsini" təşkil edir [12, s.70]. Bütövlükdə beynəlxalq hüququn normativ əsasını formalaşdıran əsas prinsiplər "hamılıqla qəbul edilmiş normaların daha dar qrupunu təşkil edir" [14, s.101]. Konstitusiyanın 10-cu maddəsində təsbit olunan prinsiplər məhz beynəlxalq hüququn əsas prinsiplərini ehtiva edir. "Müqavilələr hüququ haqqında" 1969-cu il Vyana Konvensiyasının (AR 2017-ci ildən iştirak edir) [29] 53-cü maddəsinə müvafiq olaraq, əsas prinsiplərin imperativ xarakterli (jus cogens) normalardır və digər hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normaları onlara zidd olaraq tətbiq edilə bilməz.

Beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarının üstünlüyünün tanınması prinsipinin məzmunu aşaıdakılardan ibarətdir: 1) AR milli normayaradıcılığı (o cümlədən mədəni irsin qorunması sferasında) fəaliyyətində qeyd olunan üstünlüyü tanıyır və milli qanunvericiliyinin (*o cümlədən mədəni irs obyektləri ilə bağlı*)

həmin prinsip və normalara uyğunlaşadırılmasını təmin edir (Konstitusiya Qanunu, m. 22). Bu konstitusiya müddəası sahəvi qanunvericilik aktlarında (məsələn, CM, m.1.2; İnzibati Xətalar Məcəlləsi (İXM), m.1.2 və s.) da təsbit olunur. "AR-in beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" 1995-ci il Qanununa [27] əsasən, bu qaydalar beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarına uyğun olaraq müəyyən edilir (m.1). Hər hansı milli normativ hüquqi aktda üstünlüklə bağlı müddəanın nəzərdə tutulmaması halında Konstitusiya Qanununun müvafiq norması rəhbər tutulur; 2) beynəlxalq hüququn əsas prinsipləri digər xüsusi prinsip və normaların məzmununu müəyyən etməklə yanaşı, mədəni irs obyektlərinin qanunsuz dövriyyəsinə qarşı mübarizənin xüsusiyyətlərinə uyğun olaraq xüsusi tətbiqetmə xüsusiyyətləri əldə edə bilər. Bu baxımdan suveren bərabərlik, insan hüquqlarına hörmət, daxili işlərə qarışmamaq, mübahisələrin dinc qaydada həll edilməsi, öhdəliklərin vicdanla yerinə yetirilməsi kimi prinsiplər mədəni irs obyektlərinin qanunsuz dövriyyəsinə qarşı mübarizədə əməkdaşlıq üçün daha çox əhəmiyyət kəsb edir; 3) beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normaları ilə AR-in milli qanunvericiliyi arasında ziddiyyətin yaranması halında üstünlük birinciyə verilir. Yalnız iki məqama diqqət etmək şərti ilə: 1) beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normaları imperativ və dispozitiv olmaqla fərqləndirilməlidir. Bu baxımdan əsas prinsiplər (*jus cogens* statusuna malaikdir; 2) AR Konstitusiyası və referendumla qəbul edilən aktları milli ümumi qaydanın məzmununu təşkil etməsi baxımdan pozula bilməz. Qeyd olunan məqamların nəzərə alınmasının nəticəsi olaraq, bir tərəfdən, AR Konstitusiyası və referendumla qəbul edilən aktlar yalnız beynəlxalq hüququn əsas prinsipləri ziddiyyət təşkil edə bilər, digər tərəfdən, Konstitusiyanın 10-cu maddəsinə müvafiq olaraq, beynəlxalq hüququn əsas prinsipləri AR-in Konstitusiyası və referendumla qəbul edilən aktlarına nisbətdə yalnız "prioritet üstünlüyə" [12, s.116] malik ola bilər.

Mədəni irs obyektlərinin qanunsuz dövriyyəsi ilə mübarizədə beynəlxalq əməkdaşlıq üçün əhəmiyyətli olan üçüncü prinsip ümumi qaydanın (*ordre public*) qorunması prinsipidir. Bu prinsipin məzmunu dövlətlərin suverenliyinə hörmət edilməsi və daxili işlərə qarışmamaq kimi əsas prinsiplərlə müəyyən olunur. Əslində ümumi qayda (*ordre public*) hüquq sisteminin və əxlaqın əsaslarını, cəmiyyət və dövlətin başlıca maraqlarını ifadə edir [11, 117]. Milli mədəni irs xalqın özünəməxsusluğunu ifadə etdiyi üçün onun qorunması, cəmiyyətin təhlükəsizliyinə aid olan milli maraq qismində çıxış edir. Bu baxımdan cəmiyyət üçün üçün "ümumi maraq" qismində çıxış edən mədəni irsin qorunması mənşə dövlətinin ümumi qaydasına daxildir. Mədəni irs obyektlərinin qanunsuz dövriyyəsi isə milli mədəni irsin "kasadlaşması" səbəblərindən olduğu üçün cəmiyyətin və dövlətin milli maraqlarına təhdid olaraq qəbul edilir. Bu baxımdan qanunsuz dövriyyəyə qarşı mübarizədə beynəlxalq əməkdaşlıq mənşə dövlətinin milli maraqlarının (ümumi qaydasının) qorunması ilə həyata keçirilməlidir. Qeyd edək ki, AR-də ümumi qayda "Beynəlxalq xüsusi hüquq haqqında" 2000-ci il Qanununa [24] əsasən, "Konstitusiya və referendumla qəbul edilmiş aktlar"la müəyyən olunur (m. 4). Konstitusiyanın əsas qanun olmaqla cəmiyyətin siyasi, sosial, iqtisadi əsaslarını, təhlükəsizliyini müəyyən etməsini nəzərə alsaq, "Konstitusiyaya riayət edilməlidir" prinsipinə ("Milli təhlükəsizlik haqqında" 2004-cü il Qanunu, m.5.0.1) müvafiq olaraq, mədəni irsin qorunması üzrə Konstitusiyanın müddəaları hər bir halda hüquqi aliliyə malikdir. Belə ki, Konstitusiyaya əsasən, mədəni irsin qorunması hər kəsin borcu (m. 40 və 77), dövlətin isə öhdəliyidir (m.16.II). Qeyd edək ki, bu prinsip bir qayda olaraq beynəlxalq əməkdaşlıq istiqamətində milli və beynəlxalq hüquq normalarının və tədbirlərin uzlaşdırılması baxımından əhəmiyyətlidir. Bu baxımdan hüquq ədəbiyyatında qeyd olunan beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarının (*xüsusilə əsas prinsiplərin*) da AR-in ümumi qaydasının əsasını təşkil etməsi fikri ilə [6, s.57-58] razılaşmaq lazımdır. Bunun əhəmiyyəti ondadır ki, qanunsuz dövriyyə ilə mübarizədə Konstitusiyaya və bu normalara zidd olan hər hansı normanın tətbiqi və ya tədbirin həyata keçirilməsi, mənşə dövlətinin ümumi qaydasını pozur. Bu xüsusilə əhəmiy-

yət daşıyır o halda ki, təcrübədə qanunsuz çıxarılmış mədəni irs obyektinin taleyi başqa dövlətin məhkəməsində həll edilir. Nəzərə alsaq ki, xarici dövlətin məhkəməsi bir qayda olaraq öz dövlətinin ümumi qaydasını qorumağa borcludur.

Qanunsuz dövriyyəyə qarşı beynəlxalq əməkdaşlığın hüquqi əsaslarının müəyyən edilməsi baxımından əhəmiyyətli olan prinsiplərdən biri də qarşılıqlıq (qarşılıqlı olma) prinsipidir. Bu əhəmiyyət qarşlıqlığın beynəlxalq müqavilə olmadığı hallarda qanunsuz dövriyyə ilə mübarizədə müstəqil hüquqi əsas qismində çıxış etməsindədir. Əlbəttə səmərəli hüquqi əsas olması baxımından beynəlxalq adət norması kimi istifadə olunan qarşlıqlıq, daha konkret hüquqi əsas olan beynəlxalq müqaviləni əvəz edə bilməz. Amma konkret beynəlxalq müqavilə bağlanana qədər qarşılıqlıq hüquqi əsas kimi istifadə oluna bilər. Belə ki, 1970-ci il UNESCO Konvensiyasının 9-cu maddəsinə əsasən, "razılığa gələnə qədər" hər hansı maraqlı dövlət, xahişlə müraciət edən dövlətin mədəni irsinin "əvəzsiz itkiyə məruz qalmasının qarşısını almaq məqsədilə" mümkün həddə tədbirlər görə bilər. Əslində bu prinsipdən istifadə edilməsinin məqsədi, beynəlxalq müqavilə olmadığı və ya tərəflərdən birinin mövcud müqavilədə iştirak etmədiyi halda, beynəlxalq müqavilənin olmaması bəhanəsi ilə dövlətin mədəni irs obyekti ilə bağlı qanunsuz hərəkətlərin qarşısını almaq üzrə əməkdaşlıqdan boyun qaçırmamasını təmin etməkdir. Hesab edirik ki, bu xüsusiyyəti "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" 2001-ci il Qanunu [26] yetərincə təsbit edə bilmişdir. Qanuna əsasən, "AR ilə xarici dövlət arasında müvafiq müqavilə olmadıqda və ya müvafiq müqavilə ilə tənzimlənməyən məsələlər üzrə həmin müqaviləyə zidd olmayan hissədə qarşılıqlı yardım (*qarşılıqlıq*) prinsipinə riayət olunmaqla bu Qanunun müddəaları tətbiq edilir" (m.1.2). Eyni müddəa AR Cinayət Prosesual Məcəlləsinin (CPM) [32] "AR ərazisində hüquqi yardım göstərilməsi qaydasında prosessual və digər hərəkətlərin həyata keçirilməsi" adlı 488.2-ci maddəsində də təsbit olunub. Hesab edirik ki, bu müddəalar mədəni irs obyektlrəinin qanunsuz dövriyyəsi ilə mübarizədə əməkdaşlıq üçün də əhəmiyyətlidir. Yalnız CPM, bu müddəaların beynəlxalq məhkəmə orqanları ilə əməkdaşlığa şamil edilmədiyini təsbit edir. Yeri gəlmişkən, qarşılıqlığın müstəqil hüquqi əsas qismində çıxış etməsi AR-in digər normativ hüquqi aktlarında da (məsələn, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" 1996-cı il Qanunu, m.3, b.8; "Patent haqqında 1997-cı il Qanunu, m. 42)) təsbit olunur. Əslində bu prinsipin hüquqi əsas qismində çıxış etməsi hüquq ədəbiyyatında da qeyd olunur. Bu prinsipin *de lege lata* beynəlxalq adət norması kimi tətbiq edilməsinin məqsədəuyğun olmasını qeyd edən R.A.Məcidovun fikrincə, qarşılıqlıq prinsipi dövlətlərin hüquq bərabərliyi ilə sıx bağlı olmaqla beynəlxalq əməkdaşlığın tərkib hissəsini təşkil edir [5, s.55-56]. T.N.Neşatayeva da qarşılıqlığı dövlətlərin qarşılıqlı əməkdaşlığı, həmçinin suveren bərabərlik prinsipləri ilə bağlı olan beynəlxalq hüquq prinsipi olduğunu qeyd edir [19, s.129].

Mədəni irs obyektlərinin qanunsuz dövriyyəsi ilə mübarizədə əhəmiyyətli olan növbəti prinsip ümumi və xüsusi maraqların uzlaşdırılmasıdır. Mədəni irs xalqın, sosial qrupun özünəməxsusluğunu ifadə etsə də, bu mədəni irs obyektlərinin xüsusi mülkiyyət obyekti olmasını istisna etmir. Əslində bu "mülkiyyət mənafelərinin müdafiəsi prinsipi ilə mədəni sərvətlərin qorunması prinsipi arasında ziddiyyət yaradır" [22]. Bu isə mədəni irs obyektlərinin qanuni ticarət dövriyyəsinin mümkün olmasını şərtləndirir. Təsadüfi deyildir ki, "Mədəniyyət haqqında" Qanun (m. 49.3), beynəlxalq mədəni sərvətlər bazarında AR-in mövqeyinin möhkəmləndirilməsi və genişləndirilməsini, mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığın məqsədi olaraq müəyyən edir. Əlbəttə bu vəziyyət mədəni irs obyektlərinin qanunsuz dövriyyəsinin olmasını istisna etmir. Nəticə etibarı ilə bu hal qanunsuz dövriyyə ilə mübarizədə məntiqi olaraq mədəni irs obyektinin çıxarılmasının və ya mülkiyyətçisinin dəyişməsinin qanuni olub – olmamasının müəyyən edilməsi zərurətini yaradır. Bu zərurət qanunsuz dövriyyə ilə mübarizədə beynəlxalq əməkdaşlığın ümumi hüquqla yanaşı, xüsusi hüquqi cəhətləri də özündə birləşdirməsini şərtləndirir. 1970-ci il UNESCO Konvensiyasına əlavə olaraq 1995-ci ildə "Oğurlanmış, yaxud qanunsuz çıxarılmış mədəni sərvətlər haqqında" Konvensiyasının (bundan sonra – 1995-ci il UNİDRUA Konvensiyası) (AR 2000-

ci ildən iştirak edir) [2, c.2, s. 463-473] qəbul edilməsini də bu zərurətlə izah etmək olar. Qeyd olunan paralellik aşağıdakı istiqamətlərdə uzlaşmanın yaradılmasını da zəruri edir: 1) mədəni irs obyektinə mülkiyyət hüququ ilə cəmiyyətin həmin obyektlərdən istifadə etmək hüququ arasında; 2) mədəni irsin qorunub saxlanması zərurəti ilə mədəni irs obyektlərindən istifadə imkanları arasında; 3) xüsusi (dispozitiv) və ümumi (imperativ) tənzimetmə arasında. Uzlaşmanın yaradılması məqsədi ilə prinsipin məzmununu aşağıdakı kimi müəyyən etmək olar: 1) ümumi maraq (mədəni irsin qorunması) naminə xüsusi maraqlar (mülkiyyət hüququ) məhdudlaşdırılır. Bu baxımdan mədəni irs obyektinin mülkiyyətçisinin kim olması deyil, onun hansı xalqın və ya sosial qrupun mədəni irsinə aid olması önəmlidir; 2) ümumi marağın qorunması üzrə mənşə dövlətinin müəyyən etdiyi qaydaların pozulması ilə həyata keçirilən dövriyyə qanunsuzdur (1970-ci il UNESCO Konvensiyası, m. 3); 3) qanunsuz dövriyyə ilə mübarizənin tənzimlənməsi imperativ xarakter daşıyır. Bu o deməkdir ki, mədəni irs obyektlərinin dövriyyəsinə aid xüsusi hüququn prinsip və normaları imperativ rejimin tələblərinə uyğun tətbiq edilməlidir. Məsələn, vicdanlı sahibə kompensasiyanın ödənilməsi.

Mədəni irs obyektlərinin qanunsuz dövriyyəsi ilə mübarizədə əhəmiyyətli olan digər prinsip mədəni irsə hörmət prinsipidir. Bu prinsipə görə, hər hansı dövlət öz ərazisində və ya digər dövlətin ərazisində olan mədəni irs obyektlərinə birbaşa, yaxud dolayısı ilə xələl gətirə biləcək hər hansı qərəzli hərəkətdən çəkinməlidir (1972-ci il UNESCO Konvensiyası, m. 6(3)). “Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında” 1954-cü il Haaqa Konvensiyası [33] mədəni irsə hörmət edilməsini mədəni irsin qorunmasının tərkib hissəsi kimi müəyyən edir (m. 2). Bu Konvensiyaya görə, mədəni irs obyektlərinin oğurlanması, talanması və ya hər hansı formada qeyri-qanuni mənimsənilməsi, hər hansı vandaliz aktının edilməsi, hər hansı repressiv tədbirlərin görülməsi və s. qərəzli hərəkətlərə aiddir (m. 4). Mədəni irsə hörmət prinsipinin məzmununa aşağıdakılar daxildir: 1) harada olmasından asılı olmayaraq mədəni irs obyektlərinə münasibətdə qərəzli hərəkətlərdən çəkinmək; 2) hər hansı (ilk növbədə mənşə) dövlətinin mədəni irs obyektlərinin dövriyyəsini tənzimləyən qanunvericiliyinə hörmətlə yanaşmaq; 3) harada və kimin mülkiyyətində olmasından asılı olmayaraq mədəni irs obyektinin mənşə dövlətinə qaytarılmasını təmin etmək; 4) qaytarmamaq məqsədilə mədəni irs obyektlərinin gizlətməmək. Bu hal yalnız mənşə dövlətinin maraqarını deyil, eyni zamanda cəmiyyətin həmin obyektlərdən zövq almaq və istifadə etmək hüquqlarını pozur; 5) mədəni irs obyektinin hansı xalqa və ya sosial qrupa mənsubiyyətini gizlətməmək, yaxud, bu mənsubiyyəti məqsədli olaraq dəyişdirməmək.

Qanunusuz dövriyyə ilə mübarizə üçün əhəmiyyətli ola xüsusi prinsiplərdən biri də mədəni inteqrasiya prinsipidir. Mədəniyyətlərarası əlaqəni ehtiva edən bu prinsip milli mədəni irsi beynəlxalq mədəni irsin tərkib hissəsi olaraq nəzərdə tutur. Beynəlxalq mədəni əməkdaşlığın prinsipləri Bəyannaməsinə əsasən (b.VI), beynəlxalq mədəni əməkdaşlıq bütün xalqların mədəniyyətinə təsir edir və onların qarşılıqlı zənginləşməsinə kömək edir. Bu baxımdan “Mədəniyyət haqqında” Qanun, inteqrasiyanı AR-in mədəniyyət sahəsində dövlət siyasətinin prinsipi olaraq müəyyən edir (m. 4.0.5). Bu prinsip, Azərbaycan milli mədəni irsinin dünya mədəniyyətindən təcrid olmadan bu mədəniyyətin dəyərlərini qəbul etməklə beynəlxalq səviyyədə tanıdılmasını, zənginləşməsini və inkişafını təmin edir. Bu kontekstdə mədəniyyətlərarası dialoqun dəstəklənməsi, beynəlxalq əməkdaşlıq sahəsində AR-in dövlət siyasətinin prioritet istiqamətini təşkil edir.

Mədəni irs obyektlərinin qanunsuz dövriyyəsi ilə mübarizədə xüsusi əhəmiyyət kəsb edən prinsiplərdən biri də hüquqi məsuliyyət prinsipidir. Bu prinsipə müvafiq olaraq mədəni irs obyektlərinin qanunsuz dövriyyəsi ilə bağlı hərəkətlər: mədəni irs obyektlərinin oğurlanması, qanunsuz ixracı və s. müvafiq olaraq mülki, inzibati, cinayət və beynəlxalq hüquqi, o cümlədən beynəlxalq cinayət məsuliyyətinin yaranmasına səbəb olur. 1970-ci il UNESCO Konvensiyası (m. 8) qeyd olunan hərkətləri törədən bütün şəxslərin inzibati və cinayət məsuliyyətinə cəlb edilməsi üzrə iştirakçı dövlətlər üçün müvafiq öhdəliklər müəyyən edir. 1954-cü il Haaqa Konvensiyasının II Protokolu (AR 2000-ci ildən iştirak edr)

(m. 15) mədəni irs obyektlərinə münasibətdə yol verilən hərəkətlərə görə beynəlxalq cinayət məsuliyyətinin yaranmasını nəzərdə tutur. Bu halda beynəlxalq cinayət hüququnun prinsipləri tətbiq edilir.

Beləliklə, mədəni irs obyektlərinin qanunsuz dövriyyəsinə qarşı beynəlxalq əməkdalığın prinsipləri kompleks xarakter daşıyır və özündə ümumi və xüsusi olmaqla müxtəlif prinsipləri birləşdirir. Bu prinsiplər mədəni irs obyektlərinin qanunsuz dövriyyəsinə qarşı mübarizədə həm birbaşa formada, həm də xüsusi normalar vasitəsilə ilə tətbiq edilir.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Abbasova, F.M. Cinayət prosesi. Dərslik. Ümumi hissə. - Bakı: Zərdabi LTD MMC, 2012. – 416 s.
2. Beynəlxalq sənədlər toplusu. I cild. – Bakı: Qanun, 2008. - 960 s.; II cild. – Bakı: Qanun, 2008. - 904 s.
3. Həsənov, E.Y. Hüququn prinsipləri: prinsip-normalar və hüquq normalarından irəli gələn prinsiplər // Qanunçuluq, 2008, № 3. - s.39 – 42.
4. Mehdiyev F., Quliyev E. Hüquq nəzəriyyəsi. Dərslik. – Bakı: Gənclik nəşriyyatı, 2017. – 432 s.
5. Məcidov R.A. Gömrük işi sferasında cinayətlərlə mübarizədə beynəlxalq hüquqi əməkdaşlıq: hüq. elm. nam. disser. - Bakı, 2010. - 206 s.
6. Məmmədov, Ə.Q. Azərbaycan Respublikasının Konstitusiyası ümumi qaydanın hüquqi əsası kimi // Ümumilli lider H.Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş “Müasir dövrdə hüquq sahələrinin qarşılıqlı əlaqəsi və tətbiqi: nəzəriyyə və təcrübə” mövzusunda beynəlxalq elmi-praktikii konfransın materialları. Bakı, 2 iyun 2020-ci il. – Bakı: BDU, 2020. - s. 55-59
7. Qasımov A.M. Əmək hüququ. Dərslik. – Bakı: Letterpress, 2016. – 840 s.
8. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Dərslik. Yen.iş. nəşr. – Bakı: Digesta nəşriyyatı, 2013. – 720 s.
9. Ануфриева, Л.П. Соотношение международного публичного и международного частного права: правовые категории. - М.: Спарк, 2002. - 415 с.
10. Богуславский, М.М. Культурные ценности в международном обороте: правовые аспекты. Монография / М.М. Богуславский. 2-е изд., перераб. и доп. – М: Норма: ИНФРА-М, 2015. – 416 с.
11. Дмитриева Г.К. Международное частное право (часть третья ГК РФ) / Учеб. пособие. - М: Юристь, 2002. 117 с.
12. Зимненко, Б.Л. Международное право и правовая система Российской Федерации. Общая часть: Курс лекций. М.: Статут, 2010, с. 70-71 // URLS: http://www.consultant.ru/edu/student/download_books/rubr/mezhdunarodnoe_pravo/
13. Игнатьева, И.А. Соотношение источников экологического права: экологическое законодательство и международные договоры / Государство и право, 2001, №2. - с. 41-50
14. Искевич, И.С., Сучкова, Е.А. Общепризнанные принципы международного права: понятие, виды, значение // Вопросы современной науки и практики. Университет им. В.И. Вернадского. 2015, № 1 (55), с. 98-102
15. Лившиц, Р.З. Теория права. Учебник. - М.: Бек, 1994. – 224 с.
16. Лукашук, И.И. Международное право. Общая часть: учебник. Изд. 3-е, перераб. и доп. – М: Волтерс Клувер, 2005. - 432 с
17. Международное публичное право. Учебник. 2-е изд., перераб. и доп. Под ред. К.А. Бекяшева. – М.: ТК Велби, изд-во Проспект, 2003, - 640 с.
18. Международное право. Отв.ред. Г.В.Игнатенко, О.И.Тиунов. Учебник для вузов. - М.: НОРМА-ИНФРА, 2002. - 592 с.

19. Нешатаева, Т.Н. Суд и общепризнанные принципы и нормы международного права // Вестник Высшего Арбитражного Суда Российской Федерации, 2004, № 3. - с. 124-140
20. Теория государства и права: Учебник для вузов / под ред. Марченко М.Н. – М.: Зерцало, 2004. – 800 с.
21. Ушаков, Н.А. Международное право. Учебник. – М.: Юристь, 2000. – 304 с.
22. Jakubowski A. State Succession in Cultural Property. Oxford. Oxford University Press, 2015. - 367 p.
23. James A.R. Nafziger. The Principles for Cooperation in the Mutual Protection and Transfer of Cultural Material // Chicago Journal of International Law: Vol. 8, 2007, No. 1, Article 9. // https://chicagounbound.uchicago.edu/cgi/viewcontent.cgi?article=1258&context=cjil
24. https://e-qanun.az/framework/509
25. https://www.e-qanun.az/framework/897
26. http://e-qanun.az/framework/3550
27. https://e-qanun.az/framework/9460
28. http://www.e-qanun.az/framework/21300
29. https://e-qanun.az/framework/36996
30. http://e-qanun.az/framework/46944
31. https://www.e-qanun.az/framework/46945
32. https://www.e-qanun.az/framework/46950
33. https://unesco.preslib.az/az/page/EhMCymTGWI
34. https://unesco.preslib.az/az/page/ZkBp5YPq2F
35. httpswww.unodc.orgdocumentsorganized-crimetrafficking_in_culturalRES-681-86A_RES_69_196_R.pdf
36. www.un.org/ru/documents/.../declarations/culture.shtml

**Сима Сулейманлы**

**Принципы международного сотрудничества в борьбе с незаконного оборота объектов культурного наследия**

В статье рассматриваются принципы международного сотрудничества в борьбе с незаконным оборотом объектов культурного наследия. Здесь анализируются важные теоретические и практические особенности принципов, используемых в международном сотрудничестве. Анализ проводится путем взаимного сравнения международно-правовых документов и законодательства Азербайджанской Республики. В статье проводится классификация принципов. Исследуются общие и специальные принципы, имеющие значение для незаконного оборота.

**Sima Suleymanli**

**Against illegal circulation of cultural heritage objects principles of international cooperation in the struggle**

The article deals with the principles of international cooperation in the fight against illegal circulation of cultural heritage objects. Here, the important theoretical and practical features of the principles used in international cooperation are analyzed. The analysis is carried out by mutual comparison of international legal documents and legislation of the Republic of Azerbaijan. The article conducts a classification of principles. The general and special principles that are significant for illegal circulation are examined.